# Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsində böyük işlər görülüb

**İnsan hüquq və azadlıqlarının təmin edilməsi müasir dünyada demokratik inkişafın ayrılmaz hissəsinə, bəşəriyyətin mənəvi-hüquqi və siyasi ideallarının ali təzahürünə çevrilməklə, vətəndaş cəmiyyətinin yetkinliyinin başlıca meyarı sayılır. İnsan hüquqları ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanır. Bu dəyərlər qanunla müəyyən edilir və qorunur. Bütün sivil dövlətlərdə ümumi qayğı və məsuliyyət predmeti kimi nəzərdən keçirilən bu meyarlar müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında da özünə möhkəm yer tapmışdır.**

Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq cəmiyyətin tamhüquqlu və beynəlxalq hüququn müstəqil subyekti kimi tarixin sınağından uğurla çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu, eyni zamanda bəşər sivilizasiyasının idealları olan azadlığı, insan hüquqlarını, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir.

İnsan hüquqları amili xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyətinin əsası olmuşdur. Ulu öndərimiz sivil, dünyəvi dövlət quruculuğu prosesinin ilkin şərti kimi fundamental insan hüquq və azadlıqlarının müdafiəsi zərurətini, ona şərait yaradılmasının vacibliyini həmişə xüsusi qeyd etmişdir. Ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyununda respublikamızda hakimiyyətə qayıdışından sonra ölkəmizdə qanunçuluğun təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli islahatların həyata keçirilməsini daim diqqətdə saxlamışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ümumbəşəri dəyərlərə, demokratik ənənələrə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi və təminatına əsaslanan vətəndaş cəmiyyəti quruculuğu, demokratik hüquqi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılması istiqamətində respublikamızda mühüm islahatlar həyata keçirilmiş, insan hüquq və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi elan edilmişdir.

Ötən müddət ərzində milli qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən kompleks tədbirlər qanunçuluğun təmininə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, cinayətkarlıqla mübarizə tədbirlərinin genişləndirilməsinə real şərait yaratmışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının ikinci bölməsi bütünlüklə Azərbaycan Respublikasında əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur. Konstitusiyada əksini tapmış bu strateji məqsəd ilk növbədə hüquq islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir.

Demokratik inkişaf yolu seçmiş Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin real təminatı üçün zəruri qanunvericilik bazası yaradılmışdır. 1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev tərəfindən "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalanmış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən olunmuşdur. 1998-ci il 18 iyun tarixdə ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının tərəqqisini məhz "insan meyarı"nın inkişaf etdirilməsində görərək, insan hüquqlarının müdafiəsi sahəsində ilk fundamental sənəd olan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etmişdir.

Respublikamızda həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması olub. İnsan hüquqlarının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edən ulu öndər Heydər Əliyevin ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi üçün 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı, habelə 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkili təsisatının yaradılması nəzərdə tutulub. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi. 2001-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanununu qəbul edib. Müvəkkil təsisatının yaradılması və fəaliyyəti üçün maddi və hüquqi baza formalaşdırılmışdır. Həmçinin 24 dekabr 2002-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu qəbul edilmişdir.

Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaqla bu Konvensiya Konstitusiyamızın 148-ci maddəsinə müvafiq olaraq milli qanunvericiliyin tərkib hissəsinə çevrilmişdir. Həmçinin Azərbaycan Respublikası insan hüquqlarının qorunması sahəsində mühüm beynəlxalq sənədlərə, o cümlədən BMT Baş Məclisi tərəfindən qəbul edilmiş "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqət alçaldan davranış və cəza növünə qarşı" Konvensiyaya qoşulmuşdur.

Dövlət başçısı cənab İlham Əliyevin 2006-cı il dekabrın 28-də imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncamında Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi göstərilib. Demokratik, hüquqi dövlətin, qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 2011-ci il dekabrın 27-də "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunub. Milli Fəaliyyət Proqramı ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiyanın məntiqi davamı və dövlətin növbəti siyasi iradəsi olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə, onların icra mexanizmlərinin təkmilləşdirilməsinə zəmanət verir.

Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində görülən işləri beynəlxalq təşkilatlar da yüksək qiymətləndirirlər. Azərbaycanda aparılan demokratik hüquqi islahatlar insan hüquqlarının müdafiəsi sahəsində mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaratmış, bu müddət ərzində ölkəmiz bir çox hüquqi aktlara qoşulmuşdur. BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" Memorandum imzalanıb. Azərbaycan Respublikasının İnsan Hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir.

İnsan hüquqları sahəsində ardıcıl və dinamik fəaliyyətə xüsusi diqqət yetirən respublikamız bu sahədə 300-dən çox beynəlxalq müqavilənin iştirakçısı və nüfuzlu beynəlxalq təşkilatların üzvüdür. Bu gün Azərbaycan Respublikası insan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri ilə sıx əməkdaşlıq edir. Beynəlxalq mexanizmlər tərəfindən irəli sürülən tövsiyələr isə daim Azərbaycan Respublikası tərəfindən dövlətdaxili qanunvericiliyin daha da təkmilləşdirilməsində istifadə edilir.

İctimai həyatın ən müxtəlif sahələrini tənzimləyən qanunların cəmiyyətin inkişaf ahənginə uyğun təkmilləşdirilməsi, habelə insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi baxımından, hüquq-mühafizə orqanlarının fəaliyyətində çevik hell prosedurunun tətbiqi vətəndaş cəmiyyətinin yetkinliyinin mühüm şərtlərindən sayılır. Avropa məkanına inteqrasiya kursunu prioritet seçməklə, hər bir fərdin maraq və mənafeyinin yüksək səviyyədə təminatını qarşıya məqsəd qoymuş respublikamızda dövrün tələblərinə cavab verən məhkəmə-hüquq islahatlarının aparılması davamlı prosesə çevrilmişdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.

Prokurorluq orqanlarının qanunçuluğun təmin edilməsi və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən strukturlaşaraq fəaliyyətini dövrün tələbləri səviyyəsində qurması məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün olmuşdur. Ulu Öndərin layiqli davamçısı dövlət başçısı cənab İlham Əliyev tərəfindən ölkə vətəndaşlarının hüquq və azadlıqlarının daha etibarlı qorunması, onların sosial-rifah halının davamlı olaraq yüksəldilməsi istiqamətində, məqsədyönlü addımlar atılmışdır.

"Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarxili, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər Planında prokurorluq orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə insan hüquqlarının müdafiəsindən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin səmərəli yerinə yetirmək, prokurorluq işçiləri tərəfindən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsinin, insan hüquqlarının və əsas azadlıqların müdafiəsinə dair beynəlxalq müqavilələrin, onlarla əlaqəli digər beynəlxalq hüquqi sənədlərin öyrənilməsi və təcrübədə tətbiqi üçün tədbirlər görmək, şəxsin tutulması, həbs edilməsi, həbs yerlərində saxlanması zamanı qanunvericiliyin tələblərinin, insan hüquqlarının pozulması, işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara yol verilməsi, vəzifədən sui-istifadə və digər bu kimi hallarla bağlı faktları ətraflı araşdırmaq və qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görmək, Avropa Məhkəməsinin şəxsə qarşı təqibin təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar qəbul edilməsi faktı ilə deyil, səlahiyyətli orqan tərəfindən fərdə ünvanlanmış, onun cinayət törətməsi faktını təsdiqləyən bildiriş verilməsi faktı və ya bu mənanı verən başqa tədbirlə şərtləşdirməsi nəzərə alınaraq, cinayət təqibinə məruz qalan şəxslərin Avropa Konvensiyasının 6-cı maddəsinin 3-cü bəndində nəzərdə tutulmuş hüquqların həyata keçirilməsinə şərait yaradılmasını və müdafiə hüquqlarının vaxtında reallaşdırılmasını təmin etmək, ədalətli məhkəmə baxışına mənfi təsir göstərən, əvvəlcədən ictimai rəyin formalaşdırılmasına yönələn ifadələrdən istifadə olunması, təqsirsizlik prezumpsiyasını poza biləcək nitq ilə çıxış edilməsi, müsahibə verilməsi və ya ictimaiyyəti şəxsin təqsirli olduğuna inanmağa sövq edən bəyanatların yayılması qarşısının alınmasını təmin etmək, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin prokuror fəaliyyəti üçün əhəmiyyət kəsb edən qərarların prokurorluq işçiləri arasında yayılmasını təmin etmək və digər məsələlər öz əksini tapmışdır.

***Seymur HÜSEYNOV***
***Azərbaycan Respublikası Hərbi prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru, ədliyyə polkovnik-leytenantı***